

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 5 oktyabr 2024-cü il №75 (2886) https://mod.gov.az Qiyməti 30 qəpik

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Azərbaycan Silahlı Qüvvələri Vətən müharibəsində əsl qəhrəmanlıq, fədakarlıq, rəşadət göstərmişdir

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 3-də Cəbrayıl rayonunun Horovlu kəndində fərdi evlərin və sosial obyektlərin tikintisi ilə tanış olublar.*



Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına və birinci xanıma kənddə görülən işlər barədə məlumat verib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 3-də Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına 960 şagird yerlik tam orta məktəbin binasının açılışında iştirak ediblər.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına və birinci xanıma məktəbdə yaradılan şərait barədə məlumat verib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Cəbrayıl şəhərində "Azərsun Holdinq" MMC-nin alkoqolsuz içki məhsulları istehsalı kompleksinin təməlini qoyub.

"Azərsun Holdinq" şirkətinin Müşahidə Şurasının sədri Abdolbari Gözəl dövlətimizin başçısına istehsal kompleksi haqqında məlumat verib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Cəbrayıl rayonunda "Hicaz quşçuluq" müəssisəsinin damazlıq yumurta istehsalı fabrikinin təməlini qoyub.

"Hicaz" MMC-nin təsisçisi Səfər Sadıqov dövlətimizin başçısına müəssisə haqqında məlumat verib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 3-də Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yeni müəssisələrin təməlqoyma mərasimlərində iştirak ediblər.

İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına və birinci xanıma sənaye parkında görülən işlər barədə məlumat verib.

* * *

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sənaye parkında əvvəlcə Litvanın "Dominari" şirkətinin mebel klasterinin, "Karabakh Stone" MMC-nin zavodunun, "Prestij-Kimya" MMC-nin zavodunun təməlqoyma mərasimində iştirak ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak edib.

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Zəngilan şəhərində beşinci və altıncı yaşayış komplekslərinin təməlini qoyub.

Dövlətimizin başçısına kompleks barədə məlumat verilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Zəngilan şəhərində 104 mənzilli yaşayış kompleksinin tikintisi ilə tanış olub.

Dövlətimizin başçısına yaşayış kompleksi barədə məlumat verilib.

**(Ardı 2-ci səhifədə)**

## Macarıstanlı qonaqlar "N" hərbi hissəsində olublar



Azərbaycan və Macarıstan Müdafiə nazirlikləri arasında imzalanan 2024-cü il üçün ikitərəfli əməkdaşlıq planına əsasən, Macarıstan Respublikasının Müdafiə Nazirliyinin nümayəndə heyəti Azərbaycana səfər edib.

Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində qonaqlar əvvəlcə Xüsusi Təyinatlı Qüvvələrin "N" hərbi hissəsində olublar.

Hərbi hissənin qərargahında qonaqlara xüsusi təyinatlıların döyüş təcrübəsini əks etdirən brifinq təqdim olunub.

Sonra macarıstanlı qonaqlar hərbi hissədə görülən işlərlə tanış olublar.



Macarıstan nümayəndə heyətinə xüsusi əməliyyat qrupunun taktiki fəaliyyəti, həmçinin bölmələrin istifadəsində olan silah-sursat, təchizat və döyüş texnikası nümayiş olunub.

Keçirilən görüşün məqsədi mümkün əməkdaşlıq perspektivləri haqqında fikir mübadiləsinin aparılması, eləcə də qarşılıqlı əlaqələrin inkişafı istiqamətində təkliflərin müzakirə edilməsidir.

## Azərbaycan ilə Özbəkistan arasında kompüter dəstəkli komanda-qərargah təlimi keçirilir



"Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Özbəkistan Respublikası Müdafiə Nazirliyi arasında imzalanan 2024-cü il üçün ikitərəfli əməkdaşlıq Planı"na əsasən, iki ölkə arasında "Məharət-2024" kompüter dəstəkli birgə komanda-qərargah təlimi keçirilir.

Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində keçirilən təlimdə əməliyyat əmrinin çatdırılması və vəzifələrin təhlili üzrə fəaliyyətlər icra olunub.



Daha sonra vəzifə təhlili brifinqində təlimin ssenarisinə uyğun xəbərdarlıq əmrləri verilib və fəaliyyət tərzlərinin hazırlanması prosesi həyata keçirilib.

Azərbaycan və Özbəkistan ordularının əməliyyat bölmələrinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi və döyüş qabiliyyətinin yüksəldilməsi məqsədi ilə keçirilən komanda-qərargah təlimi oktyabrın 6-dək davam edəcək.

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Azərbaycan Silahlı Qüvvələri Vətən müharibəsində əsl qəhrəmanlıq, fədakarlıq, rəşadət göstərmişdir



(Əvvəli 1-ci səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Zəngilan İstirahət Kompleksində aparılan tikinti işləri ilə tanış olub.

Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına kompleksdə yaradılacaq şərait barədə məlumat verib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Zəngilan rayonunda "AzərEnerji" ASC-nin "Sarıqışlaq" Su-Elektrik Stansiyasının açılışında iştirak edib.

"AzərEnerji" ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Cəbrayıl şəhərində inşa olunan yaşayış kompleksinin açılışında iştirak ediblər, yeni evlərə köçən şəhər sakinlərinə mənzillərin açarlarını təqdim ediblər.

Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqov dövlətimizin başçısına və birinci xanıma yaşayış kompleksində görülən işlər barədə məlumat verib.

Bildirilib ki, Cəbrayıl yaşayış kompleksinin ümumi sahəsi 7,9 hektardır. Kompleks 7-si beşmərtəbəli və 26-sı dördmərtəbəli olmaqla 33 yaşayış binasından ibarətdir. Bu binalarda ümumilikdə 712 mənzil var. Onlardan 8-i birotaqlı, 136-sı ikiotaqlı, 8-i ikiotaqlı studio tipli, 392-si üçotaqlı, 168-i isə dördotaqlıdır. Birotaqlı mənzillərin sahəsi 45-50 kvadratmetr, ikiotaqlı mənzillərin sahəsi 55-90 kvadratmetr, ikiotaqlı studio tipli mənzillərin sahəsi 98-100 kvadratmetr, üçotaqlı mənzillərin sahəsi 90-108 kvadratmetr, dördotaqlı mənzillərin sahəsi isə 110-120 kvadratmetr təşkil edir.

Bütün mənzillər tam təmirli, mətbəx mebeli, qaz plitəsi, kombi isitmə sistemi, su, qaz və elektrik sayğacları ilə təchiz olunmuş şəkildə vətəndaşlara təhvil verilir.

Altı kvartaldan ibarət kompleksin inşası keyfiyyətlə həyata keçirilib. Yaşayış binaları ilə yanaşı, ərazidə sosial-məişət obyektləri, yeraltı və yerüstü avtodayanacaqlar, istirahət guşələri, uşaq əyləncə və idman meydançaları istifadəyə verilib.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Bu gün Cəbrayıl şəhərinin azad olunmasının dördüncü ildönümüdür. Bu münasibətlə sizi, bütün cəbrayıllıları, bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu gözəl hadisəni biz dörd il sonra bu gün Cəbrayılda qeyd edirik. Bildiyiniz kimi, mənim Sərəncamımla 4 Oktyabr - Cəbrayıl Şəhəri Günü elan edilmişdir. Əminəm ki, bundan sonra biz hər il bu gözəl günü qeyd edəcəyik.

Cəbrayılın azad olunmasının çox böyük əhəmiyyəti vardır. Çünki İkinci Qarabağ müharibəsi dövründə işğalçılardan azad edilmiş birinci şəhər idi. O vaxta qədər artıq müharibə bir həftə idi ki, gedirdi və 20-yə yaxın kənd azad edilmişdi, o cümlədən Cəbrayıl rayonunun kəndləri. Ancaq şəhər olaraq birinci şəhər Cəbrayıl olmuşdur və Cəbrayıl əməliyyatı xüsusi əhəmiyyətə malik idi. Ordumuz, Silahlı Qüvvələrimiz böyük peşəkarlıq, qəhrəmanlıq göstərmişdir və işğalçıları Cəbrayıl şəhərindən qovmuşdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Azərbaycan Silahlı Qüvvələri Vətən müharibəsində əsl qəhrəmanlıq, fədakarlıq, rəşadət göstərmişdir. Biz şəhidlərimizlə əbədi fəxr edəcəyik. Əlbəttə, Cəbrayıl şəhərinin azad olunması həm müharibənin sonrakı gedişatına müsbət təsir göstərmişdir, eyni zamanda, ordumuzun və ümumiyyətlə, xalqımızın mənəvi ruhunu yüksəltmişdir. Bizim hamımızda inam var idi ki, bu müharibə bizim Zəfərimizlə başa çatacaq və hər yaşayış məntəqəsinin azad edilməsi, o cümlədən şəhərlərimizin azad edilməsi bu inamı daha da artırırdı.

Cəbrayıldan bir neçə gün sonra uğurlu Hadrut əməliyyatı keçirilmişdir. O da çox böyük peşəkarlığa malik olan əməliyyatdır. Düşmənin orada çox möhkəm istehkam mövqeləri var idi, özü də bütün təpələrdə onlar yerləşmişdi, Cəbrayılda da, həmçinin. Şəhəri azad etmək üçün bizim qəhrəman övladlarımız bir neçə müdafiə xəttini yarmalı idi və bunu edə bilmişdilər.

Hadrutdan sonra Füzuli əməliyyatı oktyabrın 17-də uğurla başa çatmışdır və yolumuz həm Şuşaya, həm Zəngilan və Qubadlı istiqamətinə açılmışdır. Müzəffər ordumuzun zəfər yürüşü bundan sonra daha sürətlə getmiş və qeyd etdiyim kimi, döyüş meydanında böyük yaşayış məntəqələrini - Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, rayonlarını, Laçın rayonunun bir neçə kəndini və nəhayət, noyabrın 8-də Şuşa şəhərini azad edə bilmişik. Bütövlükdə 300-dən çox şəhər və kənd döyüş meydanında azad edildi. Beləliklə, Ermənistan noyabrın 10-da kapitulyasiya aktına imza atmağa məcbur oldu.

Beləliklə, İkinci Qarabağ müharibəsi tarixi Zəfərimizlə başa çatdı. Bu gün bütün Azərbaycan xalqı qəhrəman övladlarımıza minnətdarlıq hissi ilə yaşayır, vətənpərvərlik ruhunda yetişmiş gənc nəsil vaxtilə itirilmiş torpaqlarımızı xalqımıza, dövlətimizə qaytara bilmişdir.

Cəbrayılın inkişafı ilə bağlı dərhal bütün müvafiq tapşırıqlar verilmişdir. İlk növbədə, minalardan təmizləmə işləri aparılmalı idi. Çünki xüsusilə keçmiş təmas xəttinə yaxın olan rayonların minalanması daha genişmiqyaslı idi. İnfrastruktur layihələrinin icrası dərhal başlamışdır və bu gün Cəbrayıla gələn hər bir insan görür, həm köhnə yol, hansı ki, sovet vaxtında olan yol yenidən qurulmuşdur və mən o yolu çox yaxşı xatırlayıram. Çünki Zəfərdən sonra o yolla dəfələrlə bu bölgələrə gəlmişəm. Yeni dördzolaqlı magistral yol uğurla inşa edilir və Zəngilana qədər, Qubadlıya qədər və oradan da Laçına qədər davam edir.



Digər infrastruktur layihələrinin icrası da uğurla, sürətlə həyata keçirilir. Təkcə Cəbrayıl rayonunda yox, bütün azad edilmiş bölgələrdə. Dünən burada olarkən biz yeni məktəbin açılışını qeyd etdik və siz də bilirsiniz ki, gələn həftədən başlayaraq uşaqlar artıq məktəbə gedəcəklər. Bu yeni məhəllədə xəstəxananın tikintisi və müvəqqəti olaraq tibb məntəqəsi də nəzərdə tutulur. Əlbəttə, belə gözəl, gözoxşayan evlər həm dövlətimizin gücünü göstərir, həm də onu göstərir ki, keçmiş köçkünlərin yaşayış şəraitinin lazımi səviyyədə təmin edilməsi üçün Azərbaycan dövləti əlindən gələni əsirgəmir. Birinci məhəllədə çoxmənzilli 33 bina inşa edilib. Burada 712 mənzil inşa edilir. Bu mənzillərin bir hissəsi artıq istifadəyə verilib, bir hissəsinin də istifadəyə verilməsi yaxın aylarda nəzərdə tutulur. Beləliklə, Cəbrayıl şəhərinin birinci yeni yaşayış məhəlləsi istifadəyə verilir.

Deyə bilərəm ki, azad edilmiş torpaqlarda aparılan işlər öz miqyasına görə xüsusi xarakter daşıyır. Heç bir başqa yerdə işğaldan, müharibələrdən əziyyət çəkmiş ölkələr bu sürətlə və bu keyfiyyətlə bərpa işlərini bu günə qədər aparmamışlar. Çünki bu işlər genişmiqyaslı və çox dəqiq planlar əsasında görülür. Hər bir şəhərin Baş planları təsdiq edilib. Hər bir kəndin bütün lazımi infrastrukturu nəzərdə tutulur. Dünən mən tikintisi gedən Horovlu kəndinin bərpası ilə tanış olmuşam. Bildiyiniz kimi, Horovlu da Cəbrayıl şəhəri kimi, eyni gündə azad edilmişdir və bir neçə aydan sonra, yəqin ki, gələn ilin birinci yarısında Horovluya da vətəndaşlar qayıdacaqlar.



Amma bununla işlərimiz bitmir. Biz, eyni zamanda, buraya qayıdacaq insanların məşğulluğu ilə məşğuluq. Təkcə dünən Cəbrayıl rayonunda yerləşən beş yeni müəssisənin təməlini qoydum. O vaxta qədər "Araz Vadisi Sənaye Zonası"nda 10-a yaxın müəssisənin həm təməli qoyulmuşdu, həm də ki, bir müəssisə artıq fəaliyyətdədir. Təkcə dünən təməlini qoyduğum müəssisələrdə mindən çox insan çalışacaq. Bu müəssisələri ərsəyə gətirən iş adamlarına da mənim tövsiyəm o idi ki, orada işləyənlərin əksəriyyəti Cəbrayıla qayıdan və qayıdacaq keçmiş köçkünlər olmalıdır. Yəni, həm yaşayış yerləri, həm bütün infrastruktur - su, qaz, elektrik enerjisi, yollar, məktəblər, xəstəxanalar, eyni zamanda, məşğulluq.

Dünən təməlini qoyduğum müəssisələrin fəaliyyətə başlaması gələn il nəzərdə tutulur. Bəlkə də bəzi müəssisələrin daha genişmiqyaslı fəaliyyəti olacaq və ilyarıma ərsəyə gələcək. Yəni, bütün bu işlər bir daha onu göstərir ki, bu torpaqlara bu torpaqların əsl sahibləri qayıdıb. Mənfur düşmən 30 il ərzində bu əraziləri ancaq dağıdıb. Bizim bu görüşümüz də bu dağıntılar arasındadır.

Mən tarixi Zəfərimizdən sonra birinci dəfə Cəbrayıla gələndə dəhşətə gəldim. Biz bilirdik ki, ermənilər bizim torpaqlarımızda öz vəhşiliyini hər yerdə göstərmişlər. Bilirdik ki, ərazilərimizin böyük əksəriyyəti dağıntılar içindədir. Amma bu dərəcədə vəhşiliyi, qeyri-insani hərəkətləri təsəvvür etmək mümkün deyildi. Cəbrayılda demək olar ki, cəmi iki bina qalmışdı. Orada da erməni hərbçiləri yerləşmişdi. Qalan bütün şəhər, bax, bu cürdür və bunu görmək istəməyən, Ermənistana bu gün də dəstək verən, onların işğalçılıq siyasətinə bəraət qazandıran bəzi Qərb dövlətləri də gözlərini geniş açıb baxsınlar. Görürlər, amma görməzliyə vururlar. Bizi ittiham edirlər, bizə qarşı sanksiyalar tətbiq edilir. Ermənistana qarşı 30 il ərzində bir dənə də sanksiya tətbiq edilməmişdir. Ermənistan beynəlxalq hüququn bütün norma və prinsiplərini pozmuşdur, torpaqlarımızın təxminən 20 faizini işğal etmişdir, etnik təmizləmə siyasəti aparmışdır, Xocalı soyqırımını törətmişdir, bütün şəhər-kəndlərimizi viran qoymuşdur. Hansısa Qərb dövlətinin rəsmi nümayəndəsi bir dəfə onlara irad tutubmu? Xeyr. Onlar hətta dünyanın bir nömrəli təşkilatı olan BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə də məhəl qoymurdular. Halbuki Təhlükəsizlik Şurasının qətnamələri mütləq icra edilməlidir. 1993-cü ildə dörd qətnamə qəbul edilmişdir. Kimsə 2020-ci ilə qədər onlara bir söz dedi ki, sən o torpaqları işğal etmisən, oradan çıxmalısan? Xeyr.

(Ardı 3-cü səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Azərbaycan Silahlı Qüvvələri Vətən müharibəsində əsl qəhrəmanlıq, fədakarlıq, rəşadət göstərmişdir





(Əvvəli 2-ci səhifədə)

Minsk qrupu nə ilə məşğul idi - ancaq bu işləri malalamaqla, erməni işğalına müəyyən dərəcədə bəraət qazandırmaqla və bizi alçaldıcı sülhə təhrik etməklə. Minsk qrupunun fəaliyyəti bundan ibarət idi. Biz bütün beynəlxalq platformalarda öz haqq səsimizi ucaldanda bizə deyirdilər ki, sizin sözləriniz çox kəskindir. Bu kəskin ritorika sülhü yaxınlaşdırmır, sülhü uzaqlaşdırır. Ermənistanla dil tapmalısınız, barışmalısınız, müharibəni uduzmusunuz, bununla barışın. Bax, bütün bunları biz eşitmişik, həm rəsmi çıxışlarda, həm bağlı qapılar arxasındakı təmas əsnasında. Bizim isə mövqeyimiz birmənalı, qətiyyətli idi və dəyişməz idi: bir qarış torpaq işğal altında qala bilməz! Məsələ sülh yolu ilə həllini tapmasa, biz məsələni müharibə yolu ilə həll edəcəyik. Mənim sözlərim bütün arxivlərdə vardır. Buna nə desələr yaxşıdır?! Müharibənin, bu münaqişənin hərbi həlli yoxdur. Yəni, Qərb dövlətləri, ilk növbədə, bizi məğlubiyyətlə barışdırmaq üçün bütün çirkin əməllərdən istifadə edirdilər ki, təki biz torpaqları işğaldan azad etməyək. Bu işğalı əbədi etmək üçün Fransa və onun kimi Qərb dövlətləri əllərindən gələni edirdilər. Bu ədalətsizliyin dərəcəsinə baxın ki, bizim torpaqlarımızı Ermənistana bağışlamaq istəyən ölkələr bu münaqişənin guya həlli ilə məşğul olurdular. Amma onların əsl niyyəti bizi daim təzyiq altında saxlamaq və bu torpaqları Ermənistana bağışlamaq idi. Onların təklifləri nədən ibarət idi? Ondan ibarət idi ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə müstəqillik verilsin. Axı, bu riyakarlığın, ikiüzlülüyün dərəcəsi olmalıdır, yoxsa yox?! Bu gün Rusiya-Ukrayna müharibəsinə baxın, Qərb dövlətləri, Fransa, Amerika, o birilər nə deyirlər? Deyirlər, Ukraynanın ərazi bütövlüyü bərpa edilməlidir, Ukrayna silahdan istifadə etməlidir. Bütün növ silahları Ukraynaya verirlər. Yaxşı, bəs bizim işğal altında olan torpaqlarımıza niyə münasibət fərqli idi? Axı, bizim də ərazi bütövlüyümüz pozulmuşdu. Bizim insanlar - 1 milyon insan evsiz-eşiksiz qalmışdır. Kim bizə kömək edirdi? Vaqonlarda, yataqxanalarda, uşaq bağçalarında, çadırlarda 1 milyon insan yaşayanda niyə bu dərəcədə ikiüzlülük göstərilirdi? Bu suallara cavab tələb edirik. Amma cavabı biz harada görürük? Yenə də anti-Azərbaycan addımlarında. Bu gün səhər mənə məlumat verildi. Amerika Konqresinin 60 ermənipərəst konqresmeni Azərbaycana növbəti sanksiyalar tətbiq etmək üçün Amerika hökumətinə müraciət etmişdir. Səhər mən o müraciəti vərəqlədim, çirkin bir müraciətdir, bizim iradəmizə təsir edə bilməz. Ancaq bu, nəyi göstərir, bizə qarşı olan düşmənçilik siyasəti dayanmır. O müraciətə baxdıqda mən təxmin etdim ki, bunun müəllifi də, ünvanı da birdir. Çünki bunun ünvanı Amerika Dövlət Departamentinin Dövlət katibidir. Amma məndə bir zərrə qədər şübhə yoxdur ki, bu müraciət Amerika Dövlət Departamentində də yazılır. Yəni, özləri özlərinə məktub yazırlar, bizi hədələmək üçün, bizi ittiham etmək üçün. Axı, biz nə etmişik? Biz öz doğma torpaqlarımızı azad etmişik. Burada erməni yaşayıb? Yox, siz - Cəbrayılın sakinləri.

Başqa yerlərdə də bütün Azərbaycan kəndlərini bax, bu günə qoyublar. Məscidlərimizi dağıdıblar, heyvanxana düzəldiblər, inək-donuz saxlayıblar. Qərbdə bir adam deyib ki, Azərbaycanın mədəni irsi talan edilir, dağıdılır, təhqir edilir? Yox. Ancaq bizi nədə ittiham edirlər? Guya biz hansısa tarixi irsi məhv edirik. Tamamilə əsassızdır. Amerika 1992-ci ildə bizə qarşı sanksiya tətbiq etmişdir, o vaxt ki, torpaqlarımız əldən gedirdi. Sonra sanksiyalar 2001-ci ildə aradan qaldırıldı. Nə üçün? Çünki onların Əfqanıstandakı işğalçılıq fəaliyyəti başlamışdı, işğalçılıq müharibəsi başlamışdı və bizə ehtiyacları var idi. Nə qədər ki, onlar Əfqanıstanda qalmışdılar, hər il bu sanksiya Amerika Prezidenti tərəfindən qaldırılırdı. Onlar ki, Əfqanıstandan qaçdılar, - özü də bütün dünyanın gözü qarşısında, - bu sanksiyalar yenidən bizə qarşı tətbiq edildi. Bu nankorluğun dərəcəsi var, yoxsa yox?! Yəni, biz sizə lazım olanda sən bu sanksiyaları aradan qaldırırsan, biz sizə lazım olmayanda yenidən bərpa edirsən, nə üçün? Bax buna görə, buna görə, bu binaya görə. Bunun kimi bütün bölgələrdə inşa etdiyimiz, bərpa etdiyimiz keçmiş köçkünlərimizin yaşayış yerlərinə görə. Bax, onların gözü bunu götürmür, bu günü götürmür. Bugünkü gün anti-Azərbaycan qüvvələr üçün yas günüdür, matəm günüdür. Yəni, necə ola bilər ki, bizim icazəmiz olmadan Azərbaycan öz hüququnu bərpa etdi, heç kimdən soruşmadan, heç kimdən qorxmadan, heç kimi saymadan. Öz gücü hesabına, öz övladlarının fədakarlığı hesabına. Bunu bizə bağışlaya bilmirlər və bu gün Azərbaycana Amerikadan sanksiya tətbiq edilir. Ondan sonra da deyirlər ki, gəlin, dostluğumuzu möhkəmləndirək. Hansı dostluqdan söhbət gedə bilər? Bizim dostumuz odur ki, bu günə sevinir. Mən bunu bir neçə gün bundan əvvəl demişəm. Bu günə məyus olan və bu günü qəbul etməyən heç vaxt bizim dostumuz ola bilməz, bunu Azərbaycan xalqı bilməlidir. Açıq demək lazımdır, yəni, diplomatik dillə qoy, diplomatlar danışsın. Mən Azərbaycan xalqına həmişə həqiqətləri demişəm, bütün dövrlərdə və bu gün də, həqiqət bundan ibarətdir. Ancaq biz öz gücümüzə arxalanmalıyıq və heç bir vədlərə, heç bir şirin sözlərə, yalançı ifadələrə aldanmamalıyıq. Xüsusilə mən gənc nəsli nəzərdə tuturam. Çünki bu gün anti-Azərbaycan qüvvələrin əsas hədəfi gənc nəsillərin şüurudur. Ona təsir etməyə çalışırlar. Ona görə Azərbaycana qarşı olmazın yalanlarını uydururlar, tirajlayırlar, öz mətbuatlarında, öz dırnaqarası qeyri-hökumət təşkilatlarında. Anti-Azərbaycan mövqeyində olan müxtəlif ünsürləri bu günə qədər də maliyyələşdirirlər Azərbaycanda, müxtəlif QHT-lər adı altında, hansısa ictimai qurumlar adı altında. Yəni, gənc nəslin şüuruna təsir etsələr, demək olar ki, Azərbaycanın gələcəyinə təsir edəcəklər, heç vaxt gənclər unutmasınlar.



Bu dağıntılar, təbii ki, bir müddətdən sonra sökülərək, bunların yerində yeni binalar inşa ediləcək. Ancaq bu mənzərə heç vaxt bizim yadımızdan çıxmamalıdır. Çünki bu işlərdə təkcə Ermənistan günahkar deyil. Əlbəttə, Ermənistan əsas günahkardır. Amma o günahı bölüşənlər onların arxasında o vaxt da, bu gün də duranlardır. Bu gün Ermənistanı silahlandıran Qərb ölkələri görəsən nə fikirləşirlər? Hesab edirlər ki, biz buna göz yumacağıq? Yoxsa ki, biz gözləyəcəyik ki, bax, bu binalar da bu günə düşsün? Xeyr, gözləməyəcəyik. Heç kim bizi çəkindirə bilməz. Biz öz gələcək inkişafımızı, təhlükəsiz həyatımızı təmin etməliyik və təmin edəcəyik! Mən Ermənistana da bax, burada, dağıntılar arasında xəbərdarlıq edirəm: dayandırın bu təhlükəli oyunları! Bir tərəfdən sülhdən danışırlar, yalan-palan danışırlar, digər tərəfdən genişmiqyaslı silahlanma gedir. Silahları da kim verir onlara? Fransa və onun kimi anti-Azərbaycan ölkələr. O silahlar nə üçün onlara pulsuz verilir? Yəni, dediyim kimi, şəhər-kəndlərimizi yenə də bax, bu vəziyyətə salmaq üçün. Nə qədər çalışsalar da, heç nə alınmayacaq. Ancaq bu gün Cənubi Qafqazı rahat buraxsınlar, əl çəksinlər, getsinlər öz işləri ilə məşğul olsunlar, öz problemləri ilə məşğul olsunlar, öz qanlı keçmişlərini yusunlar, öz günahlarını yumağa çalışsınlar. Bu gün əzab verdikləri 100 minlərlə insanın müstəqilliyini bərpa etsinlər, müstəmləkəçilik siyasətinə son qoysunlar, xalqları əzməsinlər, hər yerə burunlarını soxmasınlar. Xəbərdarlığım budur və hesab edirəm ki, bunu eşidən və buna əməl edən səhv etməz.

Ermənistan təhlükəli oyunlara qoşulub və İkinci Qarabağ müharibəsinin tarixçəsi onların yadından çıxmasın. Onların yadından çıxmasın ki, necə diz üstə bizdən imdad diləyirdilər, necə Rusiyaya gündə bəlkə 10 dəfə ən yüksək səviyyədə müraciət edirdilər ki, müharibə dayandırılsın. O, onların yadından çıxıb. İndi yeni sahiblər tapıblar. O sahiblər qabağında diz üstə yürüyürlər. Antiterror əməliyyatı onların yadından çıxmasın. Yadından çıxmasın ki, hətta o coğrafiyada biz istədiyimizə nail ola bilmişik. Heç kimə baxmadan, heç nəyə baxmadan cəmi bir neçə saat ərzində separatçılığın kökünü kəsmişik.

Əgər Cəbrayılı, şəhəri azad etmək üçün bizə bir həftə lazım idisə, Qarabağı 44 günə azad etmişiksə, separatçıların yuvası olan o bölgələri cəmi bir neçə saat ərzində azad etmişik. Bizimlə heç kim zarafat etməsin və səbrimizlə də oynamasın. Mən bu sözləri istənilən yerdə deyə bilərdim. Çünki yenə də deyirəm, Azərbaycan xalqına həmişə həqiqətləri deyirəm, fikirlərimi deyirəm. Dünyada vəziyyət dəyişir. Əlbəttə ki, bizim də hadisələrə münasibətimiz adekvat olmalıdır. Ancaq hesab etdim ki, mən bu sözləri bax, bu dağıntılar və bu gözəl binalar arasında deməliydim ki, onu həm Azərbaycan xalqı eşitsin, həm bizim dostlarımız eşitsin və bir daha bizim Qələbəmizə sevinsin, düşmənlərimiz də eşitsin və düzgün nəticə çıxarsın.

Bu gün biz azad edilmiş torpaqlarda yaşayırıq. Bu gün bütün azad edilmiş torpaqlarda, o cümlədən Xankəndidə və Xocalıda Azərbaycan Bayrağı dalğalanır. Azərbaycan vətəndaşları artıq Şuşada, Laçında, Füzulidə, Xankəndidə, Xocalıda, Cəbrayılda - bu şəhərlərdə və bir neçə kənddə yaşayır. 100-ə yaxın kəndin bərpası davam edir və biz Böyük Qayıdış Proqramını uğurla icra edirik.

Sizə isə mən burada xoşbəxt həyat arzulayıram. Siz buna layiqsiniz. Siz uzun illər çadırlarda, qaçqın düşərgələrində yaşamısınız. Biz imkan daxilində çalışmışıq ki, həyatınızı bir az yüngülləşdirək. Burada artıq 100-dən çox insan məskunlaşıb, bu gün də, dünən də gələnlər var. Onlardan bir hissəsi Biləsuvardakı qaçqın şəhərciyində yaşamışdır. Yəqin ki, mənim o şəhərciyə gəlişimi xatırlayan da var. Birinci dəfə 20 il bundan əvvəl orada olmuşam. Çalışmışıq ki, yeni mənzillər, yeni evlər tikək və təqribən 300 minə yaxın, bəlkə də çox keçmiş köçkün 2020-ci ilə qədər normal şəraitlə təmin edilmişdir. Ancaq ondan da çox insan ağır vəziyyətdə yaşamışdır. Ona görə bu gözəl binalarda yaşamaq sizin haqqınızdır, siz buna layiqsiniz. Əminəm ki, bu torpaqlarda yaşamış və oradan köçmüş, eyni zamanda, bu torpaqları heç vaxt görməmiş sizin uşaqlarınız, nəvələriniz burada rahat və xoşbəxt yaşayacaq, öz dövləti ilə, xalqı ilə həmişə fəxr edəcəkdir. Bir daha sizi təbrik edirəm.

(Ardı 4-cü səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Azərbaycan Silahlı Qüvvələri Vətən müharibəsində əsl qəhrəmanlıq, fədakarlıq, rəşadət göstərmişdir

**(Əvvəli 3-cü səhifədə)**

Sonra açarların təqdim edilməsi mərasimi olub.

Sakin **Şəfiqə Hüseynova**: Təşəkkür edirik Sizə. Allah canınızı sağ eləsin. Cəbrayıl şəhərciyində yaşayanların adından Sizə təşəkkür edirəm. Mən şəhid anası kimi yenə Sizə baş əyirəm. Bütün şəhid analarının əlindən öpürəm. Onlar da Sizə təşəkkür edirlər.

Prezident **İlham Əliyev**: Sağ olun.

* * *

Açarların təqdim edilməsi mərasimindən sonra çıxış edən sakin **Məhəmməd Quliyev**: Bu gözəl gündə, bu gözəl məkanda Cəbrayılımıza qovuşmuşuq. Sizə xalqımızın adından, camaatımızın adından və öz adımdan dərin minnətdarlığımı bildirirəm. Sizə cansağlığı, uzun ömür arzulayıram. Sizə də, Mehriban xanıma da dərin təşəkkürümüzü bildirirəm. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Bu günü bizə nəsib etdiyinizə görə Allahtaala Sizə bir daha uzun ömür, cansağlığı versin. Həmişə xalqımızın başı üzərində olasınız. Həmişə Atanız Ulu Öndərimizin yolunu belə gözəl davam etdirəsiniz. Sizə çox minnətdarıq. Sizə dərin təşəkkürümüzü bildiririk. Bizim üçün ən əziz insan, hörmətin saxladığımız insan Sizsiniz. Bizim arxamızsınız, dayağımızsınız. Allah Sizə yar olsun. Allah köməyiniz olsun. Heç vaxt xalqımızın başı üstündən əskik olmayasınız. Minnətdarıq Sizə. Çox sağ olun, çox razıyıq.

Prezident **İlham Əliyev**: Çox sağ olun.

Sakin **Bahar Ağayeva**: Hörmətli cənab Prezident, Ali Baş Komandanımız. Hörmətli Mehriban xanım. Bugünkü bu gözəl gündə, əlamətdar gündə, bizim sevincli günümüzdə bizimlə birgəsiniz. Bundan qürur duyuruq. Biz 31 ildən sonra ilk dəfə olaraq torpaqlarımıza qədəm qoymuşuq. Mən buradan çıxanda 20 yaşım var idi, tələbə idim. Artıq bu gün gəlmişik. 2020-ci ildə torpaqlar azad ediləndə biz baxırdıq, burada elə bil heç insan yaşamamışdı. Evlərimizi xarabalığa çevirmişdilər. İndi artıq baxırıq, fəxr edirik Sizinlə. Çox sağ olun ki, belə gözəl şəhərimizi abadlaşdırmısınız, bizim üçün yeni Cəbrayıl qurmusunuz. Çox sağ olun, təşəkkür edirik. Cəbrayıllılar təhsilə çox önəm verirlər, onlar üçün hava da təhsildir, su da təhsildir, qida da təhsildir. Təhsilə çox yüksək önəm verdiyinizə, mənim orta təhsil aldığım və bu gün buraya müəllim kimi qayıtdığım akademik Mehdi Mehdizadə adına məktəbi XXI əsrin bütün tələblərinə cavab verən modern bir məktəb kimi inşa etdirdiyinizə görə Sizə bütün cəbrayıllılar adından minnətdarlığımı, təşəkkürümü bildirirəm. Mehriban xanım, şəhid ailələrinə, qazi ailələrinə, şəhid analarına böyük önəm verdiyinizə, diqqət yetirdiyinizə, onların hüquqlarını qoruduğunuza görə Sizə bütün Cəbrayıl camaatı adından dərin təşəkkürümü bildirirəm.



Var olsun Azərbaycan, var olsun dövlətimiz! Azərbaycanın Bayrağı heç vaxt əyilməsin! Siz də bizim rəhbərimiz olaraq daim yaşayasınız! Allah Sizə, ailənizə cansağlığı versin! "Dəmir yumruğ"unuz həmişə möhkəm olsun! Diqqətiniz üçün təşəkkür edirəm.

Sakin **Firidun Əliyev**: Cənab Prezident, mən də öz növbəmdə istərdim Sizə təşəkkürlərimi bildirim. Çünki bizim Cəbrayıla qayıdışımızın birbaşa səbəbkarı Sizsiniz. İşğaldan azad olunmuş ərazilərdə yaradılmış infrastrukturu gördükcə adamın ürəyi açılır. Bir də Siz dediyiniz kimi, bu xarabalıqları görmək çox kədərlidir. Ancaq bu xarabalıqlara da isti ocaqları gətirənlər məhz Sizsiniz. Ona görə də Sizə xüsusi təşəkkür edirik.

Siz çıxışlarınızın birində demişdiniz ki, dünyanın görmək istəmədiyi ədaləti biz bərpa etdik. Bəli, bu ədaləti bərpa etdiyiniz üçün Sizə xüsusi təşəkkür edirəm.

Bir də məşhur bir frazanız var idi, xalq arasında geniş yayılmışdı, o frazanın da cavabı artıq var ki, Cəbrayıla yolu məhz belə çəkirlər. Sağ olun, təşəkkür edirəm, minnətdaram Sizə. Var olun!

Prezident **İlham Əliyev**: Sağ olun. Tamamilə haqlısınız, yolu belə çəkərlər. Amma Cəbrayıla o yolun çəkilişi də, əslində, bu işğalı əbədi etmək üçün göstərilən səylərin bir hissəsi idi. Ona görə Ermənistandan Cəbrayıla yeni yol çəkmək istəyirdilər ki, sonra burada məskunlaşma getsin, Ermənistana gediş-gəliş daha da asanlaşsın. Lakin bütün bu planları biz alt-üst etdik, Azərbaycan xalqı alt-üst etdi, bütün dünyaya öz iradəsini göstərdi və bizim Qələbəmiz, əlbəttə ki, xalqımız üçün, dövlətimiz üçün ən böyük nemətdir, hesab edirəm ki, Azərbaycan xalqının çoxəsrlik tarixində ən parlaq hərbi Qələbədir. Ancaq, eyni zamanda, bu Qələbə onu göstərdi ki, ədalətsizliyə qarşı mübarizə aparmaq mümkündür. Xalqda birlik olanda, güclü iradə olanda, mənəvi ruh yüksək səviyyədə olanda, sən öz köklərinə bağlı olanda və milli dəyərlərə dəyər verəndə hər şeyə qadir ola bilərsən. Bizim xalqımız bu tarixi nailiyyəti əldə etməklə, eyni zamanda, bir çox başqa yerlərdə əzab-əziyyət içində yaşayanlara da yol göstərdi ki, bunu etmək mümkündür. Ona görə bizim Qələbəmizin beynəlxalq əhəmiyyəti bundan sonra ancaq artacaq.

Bizim hərbi əməliyyatlarımızı bu gün dünyanın aparıcı hərbi məktəblərində öyrənirlər. Dəfələrlə söhbətlər əsnasında, yəni, hərbi işlərdən başı çıxan insanlarla görüşlər əsnasında, - mən xarici nümayəndələri nəzərdə tuturam, - Şuşa əməliyyatı, Hadrut əməliyyatı, digər əməliyyatlar, o cümlədən Cəbrayıl əməliyyatı, 5-6-7 müdafiə xəttinin, minalanmış və istehkamlarla təmin edilmiş o müdafiə xətlərinin hərbçilərimiz tərəfindən aşılması onlarda böyük təəccüb doğurur. İlk növbədə, əməliyyatların planlaşdırılması, əməliyyatların aparılması və eyni zamanda, sinəsini qabağa verib, gülləyə verib müdafiə xətlərini yaran bizim döyüşçülərimizin qəhrəmanlığı onlarda təəccüb doğurur. Mən bunu dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, bizi Qələbəyə aparan bizim milli ruhumuz olub.

Bütün bu amillər, deyə bilərəm ki, dünyada Azərbaycana olan hörməti bəlkə də birə on artırıb. Bu gün biz dünya miqyasında böyük hörmətə və nüfuza malik olan ölkəyik. Bu gün həm ölkə vətəndaşları və eyni zamanda, xaricdə yaşayan azərbaycanlılar başlarını dik tutublar. Dünyada milyonlarla azərbaycanlı yaşayır. Azərbaycan dilində danışan, Azərbaycan dili ana dili olan soydaşlarımızın sayı 50 milyondan çoxdur. Bu Qələbə onların da Qələbəsidir, onlar üçün də qürur mənbəyidir. Bu, əbədi belə olacaq. Biz bu torpaqlarda əbədi yaşayacağıq. Xalqımız, dövlətimiz müzəffər xalq və dövlət kimi əbədi yaşayacaq. Azad edilmiş torpaqlarda bütün buna oxşar gözəl binalar inşa edilir və ediləcək. Azərbaycanın həm Cənubi Qafqazda möhkəmlənməsi, həm daha böyük coğrafiyada önəmli ölkəyə çevrilməsi prosesi bundan sonra da uğurla gedəcək. Mən buna şübhə etmirəm, əminəm, bizim siyasətimiz bunu diktə edir, bizim potensialımız bunu göstərir. Bizim gücümüz - siyasi çəkimiz, iqtisadi qüdrətimiz, hərbi gücümüz ildən-ilə ancaq artacaq. Bunu mən tam əminliklə deyirəm. Bu yaxınlarda mən bu barədə danışmışam, nə qədər böyük səylər göstərilib ki, bizim döyüş qabiliyyətimiz daha da artsın. Baxmayaraq ki, İkinci Qarabağ müharibəsi dövründə biz bütün dünyaya hərbi cəhətdən nəyə qadir olduğumuzu nümayiş etdirdik. Bilin və Azərbaycan xalqı bilsin, o vaxtdan bu günə qədər bizim hərbi qüdrətimiz daha da artıb. Əgər kimsə bizim qabağımızda durmaq fikrinə gələrsə, yenə də peşman olacaqdır.

Bu gün, eyni zamanda, şəhər günüdür və buradan orada quraşdırılmış səhnə də görünür. Bir azdan sonra sizi bayram konserti də gözləyir. İnşallah, bundan sonra bu torpaqlarda ancaq bayramları qeyd edək. Bir daha təbrik edirəm.

* * *

Sonda xatirə şəkilləri çəkdirilib.

**AZƏRTAC-ın materialları əsasında**

# 4 Oktyabr - Cəbrayıl Şəhəri Günüdür

...Müharibənin səkkizinci günü - oktyabrın 4-də Prezident İlham Əliyevin müraciəti uşaqdan böyüyə, cavandan qocaya hamının qəlbini qürur, iftixar və sevinc hissi ilə doldurdu. Həmin müraciəti heç cür həyəcansız dinləmək mümkün deyildi. Sitat: "...Bu gün Azərbaycan xalqı sevinc içindədir. Cəbrayıllılara və bütün Azərbaycan xalqına bu gün azad edilmiş yaşayış məntəqələrinin adlarını sadalamaq istərdim. Bu gün şanlı Azərbaycan Ordusu aşağıdakı yaşayış məntəqələrini azad edib: Cəbrayıl şəhəri, Karxulu kəndi, Şükürbəyli kəndi, Yuxarı Maralyan kəndi, Çərəkən kəndi, Daşkəsən kəndi, Horovlu kəndi, Decal kəndi, Mahmudlu kəndi, Cəfərabad kəndi".

Qeyd edək ki, Cəbrayıl 1993-cü il avqustun 23-də Ermənistanın silahlı qüvvələri tərəfindən işğal edilmişdi. Ərazisi 1050 kvadrat kilometr olan rayon erməni quldur birləşmələrinin işğalına məruz qalmışdı. Bir şəhər, 4 qəsəbə, 92 kənddən ibarət olan rayonun həmin vaxt 52 min 604 nəfər əhalisi var idi.

İşğal dövründə Cəbrayıl tamamilə dağıdılıb, tarixi-dini abidələri yerlə-yeksan edilib. İşğal dövründə rayonun 72 ümumtəhsil məktəbi, 8 xəstəxanası, 132 tarixi abidəsi, 150 mədəniyyət ocağı, 100-ə yaxın kəndi insanlığa sığmayan vandalizm əməlləri nəticəsində tar-mar olub.




Prezident İlham Əliyevin də dediyi kimi, Böyük Qayıdış Cocuq Mərcanlı ilə başlayıb və Vətən müharibəsindəki ilk ciddi uğur Cəbrayıl şəhəri ilə bağlıdır. Araz çayının sahilində qərar tutan Cəbrayıl rayonunun azad edilməsi ilə 130 kilometr Azərbaycan-İran sərhədi işğalçılardan təmizləndi.

Həmin unudulmaz gündən dörd il ötür. Dörd ildir ki, 27 illik həsrətdən sonra rayon sakinləri yenidən Ərgünəş, Kirs dağlarından əsən mehi ciyərlərinə çəkməyin, Xudafərin körpüsünə ayaq basmağın sevinci ilə yaşayırlar. Vaxtilə Cəbrayıl uğrunda döyüşlərdə yüzlərlə hərbçi və dinc sakin yaralanıb. Şişqaya, Sur uğrunda döyüşlər, Daşbaşı əməliyyatı Vətən torpağı müdafiəçilərinin qəhrəmanlıq dastanı kimi həmişə xatırlanır. Bu torpağın azadlığı uğrunda canını qurban verən şəhidlərin ruhu da indi rahatlıq tapır.

Ötən il iyulun 31-də Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Sərəncam imzalayıb. Vətən müharibəsində qazanılmış tarixi Qələbəni əbədiləşdirmək məqsədi daşıyan Sərəncama əsasən, 4 oktyabr - Cəbrayıl Şəhəri Günü kimi hər il təntənəli şəkildə qeyd olunacaq.

İşğaldan azad edilmiş Cəbrayılda ini genişmiqyaslı abadlıq-quruculuq işləri aparılır. Bu il sentyabrın 26-da isə Cəbrayıl şəhərinə köç başlayıb. Artıq şəhər ilk sakinlərini qoynuna alıb. İndiyədək 133 ailə, ümumən 433 nəfər öz ata-baba yurduna dönərək orada tikilən rahat, geniş və işıqlı mənzillərdə yaşamağa başlayıb. Köç karvanları bir-birini əvəz edir. Uzun illər doğma yurd həsrəti ilə yaşayan adamların səsi ata-baba ocağından gəlir...

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva 3-4 oktyabr tarixlərində Cəbrayıl şəhərində olublar, burada inşa olunan yaşayış kompleksinin açılışında iştirak ediblər, yeni evlərə köçən şəhər sakinlərinə mənzillərin açarlarını təqdim ediblər.

Dövlətimizin başçısı bütün cəbrayıllıları və Azərbaycan xalqını Cəbrayıl şəhərinin azad olunmasının dördüncü ildönümü münasibətilə təbrik edib, bu gözəl günün bundan sonra hər il qeyd ediləcəyini bildirib.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan müdafiə naziri Türkiyədə işgüzar səfərdədir





*Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Adana şəhərində keçirilən Aviasiya, Kosmonavtika və Texnologiya - "TEKNOFEST 2024" festivalında iştirak edib.*



General-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Güler ilə görüşüb.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Daha sonra müdafiə nazirləri digər rəsmilərlə birgə sərgini ziyarət edib və qardaş ölkənin hərbi aviasiya vasitələrinin uçuşlarını izləyiblər.

Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan festivalda çıxış edərək iştirakçıları salamlayıb.

Aviasiya, Kosmonavtika və Texnologiya - "TEKNOFEST 2024" festivalı izləyicilər tərəfindən böyük maraq və həvəslə qarşılanıb.

# ƏÜO-nun artilleriya bölmələri taktiki təlim keçirib



Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) hazırlıq planına əsasən, artilleriya bölmələri ilə nümunəvi döyüş atışlı taktiki təlim keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, təlimin ssenarisinə uyğun olaraq, bölmələr həyəcan siqnalı ilə daimi dislokasiya məntəqəsini tərk edərək cəmləşmə rayonuna çıxarılıb. İcra olunacaq fəaliyyətlər xəritə üzərində dəqiqləşdirilib, yaranmış taktiki şəraitə uyğun qəbul edilmiş qərara əsasən zabitlərin məruzələri dinlənilib.

Bölmələr marşrut üzrə müxtəlif maneələri dəf edərək atəş mövqelərinin tutulması, döyüş texnikası və artilleriya qurğularının döyüş vəziyyətinə gətirilməsi üzrə fəaliyyətləri icra ediblər.

PUA bölmələri ilə qarşılıqlı əlaqədə şərti düşmənin yerüstü hədəflərinin koordinatları təyin olunub.

Praktiki atışlar zamanı planlı və plandankənar hədəflər dəqiqliklə məhv edilib.

Hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması, həmçinin komandir heyətinin artilleriya bölmələrini idarəetmə vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən nümunəvi təlimdə yüksək peşəkarlıq nümayiş etdirilib.



# Snayper tüfənglərindən praktiki atış çalışmaları yerinə yetirilib

Cari ilin hazırlıq planına uyğun olaraq, snayper tüfənglərindən atəş hazırlığı üzrə praktiki atış çalışmaları yerinə yetirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, təlim sahəsində şəxsi heyətə təhlükəsizlik qaydaları çatdırıldıqdan sonra hərbi qulluqçular atəş mövqeyinin tutulması və silahın döyüş vəziyyətinə gətirilməsi üzrə normativləri yerinə yetiriblər.

Snayperlər şərti düşmən hədəflərinin aşkar edilməsi və düzgün nişanalma qaydalarına əməl olunmaqla məhvi üzrə tapşırıqları yüksək peşəkarlıqla yerinə yetiriblər.

Çalışmaların keçirilməsində əsas məqsəd hərbi qulluqçuların hazırlıq səviyyəsinin artırılması, praktiki vərdişlərinin və atəşaçma bacarıqlarının daha da təkmilləşdirilməsidir.

# "Bu ilin səkkiz ayında hərbi cinayətlərin sayı azalıb"

Ötən ilin 8 ayı ilə müqayisədə, 2024-cü ilin eyni dövründə qeydə alınmış cinayətlər ümumilikdə 24,7 faiz, hərbi xidmət əleyhinə olan cinayətlər 25,9 faiz, qeyri-hərbi cinayətlər isə 23,4 faiz azalıb. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev deyib. X.Vəliyev bildirib ki, özünüöldürmə həddinə çatdırma cinayətləri 82,4 faiz, fərarilik cinayətləri 93,3 faiz, tabelikdə olan hərbi qulluqçuya qarşı zorakı hərəkətlər cinayətləri 28,1 faiz, hərbi xidmətdən yayınma cinayətləri 34 faiz, maşınları idarəetmə və istismar qaydalarını pozma cinayətləri 83,3 faiz, odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə-qorxu ilə tələb etmə cinayətləri 30,8 faiz, silahla və ətrafdakılar üçün yüksək təhlükə törədən əşyalarla davranış qaydalarını pozma cinayətləri 50 faiz, xuliqanlıq cinayətləri 75 faiz, rüşvət alma (passiv rüşvətxorluq) və rüşvətvermə (aktiv rüşvətxorluq) cinayətləri isə 59,7 faiz azalıb.

# "Ən yaxşı tank bölüyü" adı uğrunda yarış keçirilib



2024-cü ilin döyüş hazırlığı planına əsasən, Quru Qoşunlarında "Ən yaxşı tank bölüyü" adı uğrunda yarış keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması, eləcə də döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən yarışda tank bölmələrinin döyüş hazırlığı yoxlanılıb.

Hərbi qulluqçulara sıra baxışı keçirildikdən sonra onlardan taktiki və fiziki hazırlıq üzrə məqbullar qəbul olunub. Həmçinin gündüz və gecə vaxtı atış və sürücülük üzrə çalışmalar yerinə yetirilib.

Yarışın yekununda "Ən yaxşı tank bölüyü" adına layiq görülən bölmə müəyyən edilib.

# “Mənim Ulu Öndərim” adlı tədbir keçirilib

*Oktyabrın 3-də Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilməsinin ildönümünə həsr olunmuş "Mənim Ulu Öndərim" adlı tədbir keçirilib.*



Müdafiə Nazirliyi xəbər verir ki, tədbirdə əvvəlcə dahi rəhbər Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Çıxış edənlər Ümummilli Liderimizin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən, onun dövlətçilik ideyalarının qorunub saxlanması və inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyi tədbirlərdən danışıblar.

Ulu Öndərin siyasi irsinin gənc nəslə ötürülməsi və müasir Azərbaycanın inkişafında oynadığı əvəzsiz rol xüsusi vurğulanıb.

Qeyd olunub ki, onun müdrik siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sayəsində ölkəmizin inkişafı durmadan artır, Azərbaycan dünyada aparıcı ölkələrdən birinə çevrilir.

Tədbirdə bədii kompozisiyalar və musiqi nömrələri təqdim edilib.

# “N” hərbi hissəsinin yaranma günü qeyd olunub



Oktyabrın 3-də "N" hərbi hissəsinin yaranma günü münasibətilə tədbir keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Müdafiə Nazirliyi rəhbərliyinin təbriki şəxsi heyətə çatdırılıb, eləcə də hərbi hissənin yaranma tarixi barədə ətraflı məlumat verilib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunda aparılan uğurlu islahatların müsbət nəticələri tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Daha sonra xidmətdə fərqlənən bir qrup hərbi qulluqçu fəxri fərman və qiymətli hədiyyələrlə təltif edilib.

Sonda hərbi qulluqçuların tribuna önündən təntənəli keçidi olub.

*Tarix yazan oğullar*

# Şəhidlərin xatirəsinə park yaratmaq istəyirdi...



*Qədim Şəmkir elində də şəhidlər həmişə böyük ehtiramla yad olunur, xatirələri əziz tutulur. Şəhid Elbrus Laçın oğlu Hüseynov da xatirələrdə və tarixdə belə yaşadılır.*

Elbrus yeniyetməliyindən igid oğulların davamçılarından olacağını həmişə qürurla deyərmiş. O, 1996-cı il martın 26-da Şəmkir rayonunun Çaparlı kəndində anadan olmuşdu. Suliddin Sadıqovun adını daşıyan tam orta məktəbdə təhsil almışdı. Məktəbin ictimai tədbirlərində həmişə fəal iştirak edərdi. Vətənpərvərlik mövzusunda keçirilən tədbirlərin öncüllərindən olardı. Vətənimizin qədim tarixi, tarixi şəxsiyyətlərin, sərkərdələrin həyatına maraq göstərərdi. Ermənilərin başlatdığı müharibə, törədilən faciələr, torpaqlarımızın işğalda olması onu da həmişə narahat edərdi. Atası Laçın Hüseynovun Birinci Qarabağ müharibəsi haqqında dediklərini də həmişə diqqətlə dinləyərdi. Müharibənin çətinlikləri o vaxtlar Hüseynovlar ailəsindən də yan keçməyib. Atası cəbhə bölgəsində bir neçə il xidmətdə olub. Böyüyəndə müharibənin dəhşətlərini ilk dəfə atasından eşidib. Sevimli tarix müəllimi Kəmalə İsmayılovadan soruşardı: "Əsgərlərimiz torpaqlarımızı nə vaxt azad edəcəklər?". Müəllim Ali Baş Komandan cənab İlham Əliyevin sərkərdəliyi ilə gec-tez torpaqlarımızın azad olunacağını deyərmiş.

Elbrus ali təhsil almaq arzusunda idi. Qəbul imtahanlarından müvəffəq bal toplasa da, istəyinə nail ola bilmir, ruhdan da düşmür. 2014-cü ildə yaxınları, doğmaları onu hərbi xidmətə yola salırlar. Elbrus Vətənə sədaqətli əsgər olacağını, mətin, cəsur vətənpərvər oğulların davamçısı kimi xidmət edəcəyini bildirir.

"N" hərbi hissəsində xidmətində əsgər kimi göstərilən etimadı doğruldur. Komandanlıq tərəfindən fəxri fərmana, mükafata layiq görülür. 2016-cı ilin Aprel döyüşlərində düşmən təxribatının dəf edilməsində xidmət etdiyi hərbi hissənin şəxsi heyəti də yaxından iştirak edir. Ordu hissələrimiz qısa müddətdə düşmənin xeyli canlı qüvvəsini, texnikasını, mühəndis-istehkam sədlərini məhv edərək torpaqlarımızın bir hissəsini işğaldan azad edir. Strateji əhəmiyyətli Lələtəpə yüksəkliyi, Cocuq Mərcanlı kəndi və digər ərazilər işğaldan azad olunur. Bu döyüşlər təsdiqləyir ki, Azərbaycan Ordusu artıq işğalçılardan torpaqlarımızı azad etməyə qadirdir.

Aprel döyüşlərində Elbrus Hüseynov fədakar əsgər və cəsur döyüşçü kimi vuruşur.

"Bir neçə gün ondan xəbər olmadı. Çox narahat olduq, ancaq inanırdıq ki, tezliklə geri dönəcək. Belə də oldu. O, igid əsgər kimi xidməti borcunu şərəflə yerinə yetirdi. Eloba onu böyük coşquyla qarşıladı", - atası Laçın Hüseynov dedi.

Elbrus Hüseynov müddətdən artıq həqiqi hərbi xidmət



hərbi qulluqçusu kimi xidmətini davam etdirmək qərarına gəlir.

2020-ci ilin yanvarında Elbrus xidmətini davam etdirmək üçün sənədlərini "N" hərbi hissəsinin komandanlığına təqdim edir. Müvafiq təlim kursunu keçdikdən sonra xidmətini davam etdirir. 2020-ci ilin Tovuz döyüşlərində düşmən təxribatının qarşısının alınmasında şücaət göstərən Elbrus Hüseynov, 27 sentyabr 2020-ci ildə başlayan İkinci Qarabağ müharibəsində də iştirak edib. Murovdağ yüksəkliyi istiqamətində gedən döyüşlər zamanı onun xidmət etdiyi bölmə bir neçə döyüş tapşırığını məharətlə, çevikliklə, hünərlə yerinə yetirdi.

Döyüşlər zamanı Elbrus Hüseynov düşmən gülləsinə tuş gəlir. Oktyabrın 5-də şəhid olur. Çaparlı kənd qəbiristanlığında dəfn edilir.

Vətənpərvər, cəsur döyüşçü olan Elbrus Hüseynovun atası, anası Elbruslu günlərini xatırlayaraq onun yüksək vətənpərvərlik hissinə, tükənməz Vətən sevgisinə malik olduğunu kövrəkliklə, qürurla dedilər. Əlavə etdilər ki, Elbrusun ən böyük arzusu Vətən torpaqlarının işğalçılardan azad edilməsi, ərazi bütövlüyümüzün təmin olunması idi.

Atası Laçın Hüseynov dedi ki, onun bir arzusu da vardı: kənd şəhidlərinin xatirəsinə park salmaq. Elbrus deyirdi ki, onu qələbədən sonra reallaşdıracaq. Oğlumun arzusu həyata keçdi. İndi onun adını daşıyan Şəhidlər parkı hər gün soydaşlarımız tərəfindən ziyarət olunur. Şəmkirdə, Tovuzda cəsur döyüşçü kimi tanınan Elbrus Hüseynovun xatirə lövhələri yaradılıb. Oxuduğu məktəbin həyatında büstü qoyulub, yaşadığı küçə onun adını daşıyır. Yaşadığı evdə ev muzeyi yaradılıb. Burada onun yeniyetməlik, gənclik çağlarının, məktəb illərinin, əsgərlik və döyüş həyatının eksponatları toplanıb. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra təltif olunduğu 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları muzeyin ən qiymətli eksponatlarıdır.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# ANAMA: Sentyabr ərzində 3 min 301 partlamamış hərbi sursat zərərsizləşdirilib




Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra edilən minatəmizləmə əməliyyatlarına dair aylıq məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, sentyabr ayında Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 289, tank əleyhinə 478 mina və 3 min 301 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən ay ərzində 6118.2 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# Tarixi Zəfərlə nəticələnən Milli Strategiyada Ali Baş Komandan faktoru

Müstəqil Azərbaycanda ordu quruculuğu prosesi Prezident İlham Əliyevin hakimiyyəti dövründə tamamilə yeni mərhələyə qədəm qoydu. Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu siyasətini uğurla davam və inkişaf etdirən, yeni məzmun və ideyalarla zənginləşdirən Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində dərin islahatlar, genişmiqyaslı təlimlər həyata keçirildi və hərbi qulluqçuların peşəkarlığının artırılması, Azərbaycan Ordusunun şəxsi heyətin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, Silahlı Qüvvələrimizin ən müasir silah və texnika ilə təchizatı daim ön planda saxlanıldı. Eyni zamanda, xidmət və sosial-məişət şəraitinin yaxşılaşdırılması da diqqətdən kənar qalmadı, bu istiqamətdə mütəmadi olaraq tapşırıqlar verildi, Sərəncam və fərmanlar imzalandı.

Prezident cənab İlham Əliyevin ali diqqət və qayğısı sayəsində Azərbaycan Silahlı Qüvvələri qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrildi. Heç şübhəsiz ki, ölkəmizdə ordu quruculuğu növbəti illərdə də prioritet sahələrdən biri olacaq.

Müasir silahlara, yüksək texnologiyalara, ən qabaqcıl hərbi-texniki vasitələrə, güclü sosial bazaya, mükəmməl döyüş hazırlığına və ruh yüksəkliyinə malik Azərbaycan Ordusu torpaqlarımızı azadlığa qovuşdurdu, ölkəmizin ərazi bütövlüyünü bərpa etdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında şanlı Zəfərlə nəticələnən Vətən müharibəsindən, eləcə də antiterror əməliyyatı da daxil olmaqla, postmüharibə dövründə aparılan əməliyyatlardan illər keçsə də, bu mövzuya maraq səngiməyəcək, qazandığımız qələbələr və nail olduğumuz uğurlar öz tarixi əhəmiyyətini itirməyəcəkdir. Silahlı Qüvvələrimizin döyüş əməliyyatları bu gün də dünyanın bir çox hərbi elm mərkəzləri, hərbi ekspertlər və analitiklər tərəfindən təhlil edilməkdədir.

Bu uğurların əsasında təməli Ulu Öndər tərəfindən qoyulan və Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında dövlətimizin bütün istiqamətlərdə uğurla, inamla yürütdüyü düzgün strategiya dayanır. Milli müdafiə strategiyasının ana qolu isə ordu quruculuğudur. Düzgün hesablanmış diplomatik gedişlər, aparılan uğurlu daxili və xarici siyasət, dayanıqlı iqtisadi inkişafa nail olunması, ordu quruculuğu prosesində taleyüklü islahatların həyata keçirilməsi, ən nəhayət, xalq-dövlət-ordu birliyi bu strategiyanın təməl prinsipləridir. Milli müdafiə strategiyasının həyata keçirilməsi nəticəsində iqtisadi imkanlarımız artdıqca ordumuzun arsenalına ən müasir silah və hərbi avadanlıqların daxil edilməsi təmin olundu. Hərbçilərimizin peşəkarlığının yüksəldilməsi məqsədilə keçirilən döyüş hazırlığı məşqələri, irimiqyaslı təlimlər, hərbi qulluqçularımızın beynəlxalq kurslara cəlb edilməsi və ən müasir hərbi təhsil sisteminin qurulması da iqtisadi qüdrətimizin məhsuludur.



Möhtəşəm "Dəmir yumruq" əməliyyatından sonra Azərbaycan Ordusu yeni keyfiyyət mərhələsinə yüksəldi, qoşunlar ən müasir silah və hərbi texnika, bütün təminat növləri ilə təchiz edildi. Azərbaycanda hərbi-sənaye kompleksinə aid onlarla müəssisə uğurla fəaliyyət göstərir, ordumuz keyfiyyətli məhsullarla təmin edilir. Azərbaycanın hərbi sənaye zavodlarında bütün növ patronlar, tapança, avtomat, snayper tüfəngi, pulemyot, qumbaraatan, minaatan, aviasiya bombası, zirehli maşın, pilotsuz uçuş aparatı da daxil olmaqla, mindən çox çeşiddə müdafiə təyinatlı məhsullar istehsal edilir.

Ali Baş Komandanın rəhbərliyi altında yenilənən, inkişaf edən, qüdrətlənən müasir Azərbaycan Ordusu regionun ən güclü hərbi strukturu, dünya orduları sırasında layiqli və yüksək yer tutan, vahid mərkəzdən idarə olunan, Vətənimizin müdafiəsində ayıq-sayıq dayanan peşəkar ordudur. Bu gün əminliklə deyə bilərik ki, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə əhatə olunmuş ordumuz xalqımıza qarşı yönəlmiş istənilən təcavüzün dəf olunmasını və ərazi bütövlüyümüzün müdafiəsini əzmlə təmin etməyə tam qadirdir.

Ordu quruculuğu sahəsində aparılan islahatlar uğurla davam edir. Mövcud hüquqi baza təkmilləşdirilir, beynəlxalq qanunlara, hüquqi normativlərə inteqrasiya təmin olunur. Dövrün tələblərinə cavab verməyən qərarlar, sərəncamlar, sənədlər təftiş-təhlil edildi, hüquqi sənədlər, əsasnamələr yenidən işlənilərək hazırlandı. Şəxsi heyətin döyüş ruhunun, qələbə əzminin əhəmiyyəti nəzərə alınaraq, mənəvi-psixoloji təminata, nizam-intizama, milli-mənəvi dəyərlərə əsaslanan vətənpərvərlik tərbiyəsinə daha böyük və xüsusi önəm verildi, hərbi psixoloqlar fəaliyyətə başladı. Bu müsbət addımların nəticəsini Vətən müharibəsi və postmüharibə dövründə keçirilən əməliyyatlarda bütün ölkə gördü. Döyüş hazırlığına cavabdeh qurumların rolu və əhəmiyyəti yüksəldildi, bölmələrin əməliyyat imkanları xeyli artırıldı. Hərbi kadrların hazırlanması sistemi mərkəzləşdirildi və hərbi təhsildə ciddi islahatlar aparıldı, keyfiyyət göstəriciləri əhəmiyyətli dərəcədə yüksəldi. Bu gün ordumuzda kadr təyinatları zamanı yeni düşüncə tərzinə malik, peşəkar, döyüş təcrübəsi və ordumuza yenilik gətirmək bacarığı olan, çətin vəziyyətlərdə operativ, qətiyyətli qərarlar qəbul etməyi bacaran, səriştəli, hazırlıqlı hərbçilərin seçilərək təyin edilməsinə üstünlük verilir. Kadrların təyin edilməsində rotasiya prinsipi tətbiq edilir, bu da hərbi hissələrdə sosial ədalət prinsipinin qorunmasına münasibətin müsbət təzahürüdür. Şəxsi heyətin yalnız döyüş hazırlığı ilə məşğul olmasını təmin etmək üçün təminat-təchizat və bir çox digər işlərə yalnız mülki şəxslər cəlb olunurlar. Bağlaşma-müqavilə əsasında xidmətə keçid təmin olunub və bölmələrin döyüş hazırlığına birbaşa təsir edəcək vəzifələrə ixtisaslı, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları cəlb edilməsi prosesi ordunun tələbatına uyğun olaraq planlı şəkildə davam edir. Quru Qoşunları, əməliyyat (komando) birləşmələri və Milli Müdafiə Universitetinin yaradılması, həmçinin Xüsusi Təyinatlı Qüvvələr və Hərbi Dəniz Qüvvələrinin gücləndirilməsi də islahatların nəticəsidir. Səfərbərlik və qoşunların komplektləşdirilməsi sisteminin maksimal dərəcədə asanlaşdırılması nəticəsində ehtiyat qüvvələrin hazırlanması və təlimlərə cəlb edilməsi işi tamamilə yenidən qurulub. Artıq neçə ildir ki, fəaliyyət planına uyğun olaraq il ərzində hərbi vəzifəlilərlə mütəmadi olaraq təlim toplanışları keçirilir.

Ali Baş Komandanın göstərişinə əsasən, ordumuzun hərbi potensialının və dövlətimizin müdafiə qüdrətinin artması məqsədilə alınan müasir silah və texnika dərindən öyrənilməsi, praktikada effektiv tətbiqi və səmərəli istifadəsinin təmin olunması üçün birbaşa qoşunların sərəncamına verilir. Bunun sayəsində istənilən hərbi texnikanın silahlanmaya qəbul edildiyi gündən praktiki öyrənilməsi təmin olunur. Bir faktı da qeyd etmək yerinə düşər ki, hərbi hissələrdə quraşdırılmış trenajorlar və simulyatorlar vasitəsilə daha az resurs sərf etməklə şəxsi heyət tərəfindən döyüş texnikaları öyrənilir, sonra isə döyüş hazırlığı məşğələlərində və təlimlərdə həmin texnikaların praktiki tətbiqi həyata keçirilir. Yuxarıda qeyd etdiyimiz kimi, arsenala daxil olan silahları idarə edənlər əsasən bağlaşma yolu ilə xidmət edən şəxsi heyətdir, öz işinin peşəkarlarıdır.

Ordunun döyüş hazırlığının yüksəldilməsi və hərbi qulluqçuların peşəkarlığının artırılması məqsədilə yüksək dəqiqliyə malik silahlardan maksimum istifadə etməklə baş tutacaq təmassız, hibrid savaşlar, lazer texnologiyaları, süni intellekt və digər texnoloji yeniliklərlə zəngin döyüş əməliyyatlarının öyrənilməsi istiqamətində də ordumuzda uğurlu işlərin bünövrəsi qoyulub və bu sahədə də planlı işlər icra olunur.

Döyüş əməliyyatlarında hərbi aviasiyanın əhəmiyyəti və rolu nəzərə alınaraq, son illər Hərbi Hava Qüvvələrinin və Hava Hücumundan Müdafiə bölmələrimizin müasirləşdirilməsi istiqamətində də nəhəng işlər görülüb. Ordumuz hərb elminin son nailiyyətlərindən geniş istifadə etmək imkanı qazanıb. Tələbata uyğun müasir təlim-döyüş təyyarələri, pilotsuz uçuş aparatları, avtomatlaşdırılmış idarəetmə sistemləri, yüksək dəqiqlikli silahlar alınaraq Hərbi Hava Qüvvələrimizin arsenalına daxil edilib. Hərbi pilotların uçuş saatları çoxaldılıb, aviasiya silahlarının praktiki istifadəsinə və radiolokasiya sistemlərinin daima yenilənməsinə xüsusi diqqət yetirilir və bu istiqamətdə dünyanın ən qabaqcıl ölkələrində istehsal edilən qurğuların alınması, regionun və ölkəmizin ərazisində istifadəyə, eyni zamanda, onların bir-birinə inteqrasiyası məqsədilə modernləşdirmə prosesi davam edir. Həmçinin Hərbi Dəniz Qüvvələri, raket və artilleriya hissələri, tank və digər zirehli texnika, rabitə və idarəetmə sistemləri yenilənib, həmin sahədə tətbiq edilən texnikaların modernləşdirilməsi ilə bağlı böyük işlər görülüb. Hərbi Dəniz Qüvvələri sahildə deyil, dənizdə döyüş atışlı təlimlər keçirməklə praktiki vərdişləri təkmilləşdirir. Xəzər dənizinin ölkəmizə aid sektorunda infrastrukturların etibarlı mühafizəsini təşkil etmək məqsədilə fasiləsiz döyüş növbətçiliyi həyata keçirilir.

Qoşunlarda yalnız nəzəri dərslərə deyil, həmçinin yeni inşa edilmiş poliqonlarda müxtəlif qoşun növlərinin cəlb edilməsi ilə döyüş atışları yerinə yetirilən, intensiv, aktiv fazalı, döyüş şəraitinə maksimum yaxınlaşdırılmış müxtəlif miqyaslı təlimlərə daha çox üstünlük verilir. Bütün səviyyələrdə müxtəlif kateqoriyalı hərbi qulluqçuların cəlb edilməsi ilə keçirilən praktiki təlim-məşqlərin və döyüş atışlarının sayı əhəmiyyətli dərəcədə artırılıb. İl ərzində hərbi qulluqçuların təminatı normalara, mövsümə və xidmət şəraitinə uyğun tam həcmdə təmin olunur və bu işdə keyfiyyət daim əsas tələb olaraq qalır. Şəxsi heyətin sağlamlığının qorunması və ixtisaslı tibbi xidmətin göstərilməsi məqsədilə ən müasir tibbi avadanlıqlar, mobil səhra hospitalları, reanimobillər, sanitar helikopterlər alınaraq şəxsi heyətin istifadəsinə verilib.

Vətən müharibəsinin başlamasının dördüncü ildönümündə 2020-ci ilin sentyabr - noyabrında baş verən tarixi proseslərdən danışarkən səmimi olaraq qeyd etmək istəyirik ki, tarixi Zəfərlə nəticələnən Milli Strategiyamızda Ali Baş Komandan faktoru həlledici rol oynayıb. İyirmi illik gərgin və qətiyyətli fəaliyyəti dövründə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev etimadı, inamı doğrultdu, xalqın sevgisini qazandı. Yüksək intellekti, praqmatik düşüncələri, enerjisi, təşəbbüskarlığı, müasir dünya siyasəti, diplomatiya və iqtisadiyyatla bağlı dərin bilikləri sayəsində xalqı dəmir yumruq kimi sıx birləşdirməyə nail olmaqla, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı naminə nəhəng işlər gördü. Dünyaya sübut etdi ki, xalqı ətrafında birləşdirərək, həmrəyliyə nail olub, ölkəsini uğurlara, zəfərlərə, nurlu sabahlara aparmağa qadir rəhbər, şəxsiyyət, lider və Müzəffər Ali Baş Komandandır. Xalqın dəstəyi ilə Ali Baş Komandan cənab İlham Əliyev Ulu Öndərin sona çatdıra bilmədiyi taleyüklü məsələləri, planları, işləri uğurla reallaşdırdı, torpaqlarımızın işğaldan azad edilməsinə, ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpasına nail oldu.

Vətən müharibəsində Zəfərimiz Ali Baş Komandan cənab İlham Əliyevin şah əsəri, Azərbaycan tarixinin ən möhtəşəm abidəsidir.

**Ehtiyatda olan polkovnik-leytenant hərbi jurnalist İsa İSMAYILOV, tərcüməçi-publisist Nadiyə QAFAROVA**

# Türkiyədə 10-cu "TEKNOFEST" festivalına start verilib



Oktyabrın 2-də Adana şəhərində Türkiyənin ən böyük aviasiya, astronavtika və texnologiya festivalı "TEKNOFEST 2024"ə start verilib.

AZƏRTAC xəbər verir ki, Türkiyə Sənaye və Texnologiya Nazirliyinin dəstəyi ilə Türkiyə Texnologiya Komandası Vəqfi (T3) tərəfindən hər il təşkil olunan bu tədbir onuncu dəfədir ki, keçirilir.

2022-ci ilin may ayında Azərbaycan qardaş Türkiyə ilə dostluq və strateji müttəfiqliyə sadiqliyini bir daha nümayiş etdirərək "TEKNOFEST" festivalına ev sahibliyi edən ilk xarici ölkə oldu.

2018-ci ildə ilk "TEKNOFEST" festivalının proqramına 20 min gənc Türkiyə vətəndaşının iştirakı ilə 14 yarış daxil idisə, bu il ümumi iştirakçı sayı 1 milyon 650 min nəfər olan 790 min komanda 50 yarış kateqoriyasında qələbə uğrunda mübarizə aparır.

Ötən il Adanada keçirilən festivalla müqayisədə hazırda 11 yeni kateqoriya üzrə yarışlar təşkil olunub.

Festivalın təşkilatçıları Türkiyədə gələcək peşəkar kadrların formalaşmasının mühüm stimulu olan gənc nəslin elm və texnologiyaya marağının artırılmasına maksimum töhfə verməyə hazır olduqlarını bəyan ediblər.

Aparıcı dövlət müəssisələri, texnologiya nəhəngləri və universitetlər də daxil olmaqla, 128 müxtəlif təşkilat və şirkət Şakirpaşa Hava Limanında ən son inkişaf nümunələrini nümayiş etdirir.

Festivalın tarixində ilk dəfə olaraq, dördgünlük tədbirlərin proqramına kvant texnologiyaları üzrə müsabiqələr daxil edilib. Pilotsuz uçuş aparatlarının ən yaxşı operatorlarını müəyyənləşdirmək üçün müsabiqələr də nəzərdə tutulub.

Ümumi sahəsi 270 min kvadratmetr olan festival ərazisində çoxsaylı sərgilər, konsertlər və aviaşoular təşkil edilir.

Festival çərçivəsində Antalyada keçirilən müsabiqələrin ilkin mərhələsinin qalibləri üçün 25 texnoloji nominasiya üzrə mükafatlar da nəzərdə tutulub.

Maraqlananlar "zaman tunelinə" və "rəqəmsal kainat zonasına" baş çəkə və uçuş simulyatorunun idarəetmə sükanı arxasında əyləşə bilərlər.

"Türk Ulduzları" və "SOLOTÜRK" pilotaj qrupları ilə yanaşı, Adana sakinləri və festivalın qonaqları "Akıncı", "Aksunqur", "Anka" və "Bayraktar TB2" PUA-ların, eləcə də yerli "Hürkuş" təyyarələrinin uçuşlarına şahidlik edəcəklər. "Atak" hücum helikopterinin pilotları da bacarıqlarını nümayiş etdirəcəklər.

İştirakçılar "Bayraktar-TB3" və "ANKA III"" PUA-larının ilk uçuşlarının şahidi olacaqlar.

Adana sakinləri və qonaqlar üçün yerli pilotsuz hərbi təyyarə "Kızılelma" və Türkiyənin "Gökbey" helikopteri də nümayiş etdirilir.

Gözlənildiyi kimi, oktyabrın 4-də Prezident Rəcəb Tayyib Ərdoğan Adanada "TEKNOFEST 2024" festivalının keçirildiyi ərazini ziyarət edəcək.

Keçən il Türkiyənin 3 ən böyük şəhərində - İstanbul, Ankara və İzmirdə növbə ilə təşkil edilən festivala ümumilikdə 4,5 milyon insan qatılıb. Hazırkı tədbirin təşkilatçıları yeni rekord göstərici qeydə alınacağını proqnozlaşdırırlar.

# Ən son "ANKA III" PUA-sı Adanada "TEKNOFEST"də nümayiş uçuşu edib



Türk mühəndislərinin son işi - "ANKA III" hücum pilotsuz uçuş aparatı Adanada keçirilən 10-cu Aviasiya, Texnologiya və Astronavtika festivalı "TEKNOFEST 2024" çərçivəsində öz imkanlarını nümayiş etdirib.

AZƏRTAC xəbər verir ki, ictimaiyyət ilk dəfə TUSAŞ tərəfindən hazırlanan yeni PUA-nın uçuşunun şahidi olub.

Əlli dəqiqə davam edən uçuşda pilotsuz aparatı Türkiyənin HÜRJET təlim təyyarəsi müşayiət edib.

"ANKA III" layihəsinə 2022-ci ildə start verilib. Həmin ilin oktyabrında PUA-nın dizaynı təsdiqlənib, 2023-cü ilin yanvarında isə konstruktorlar hücum pilotsuz aparatının quraşdırılmasını başa çatdırıblar. PUA-nın ilk uçuşu 2023-cü ilin dekabrında həyata keçirilib və 1 saat 10 dəqiqə davam edib.

Faydalı yük 1,2 tona, sürət isə 0,7 dövrəyə çatır.

Pilotsuz aparat 10 saata qədər havada qala və 12 km-dən çox hündürlüyə qalxa bilir.



Döyüş tapşırıqları ilə yanaşı, PUA kəşfiyyat və ərazi monitorinqi üçün istifadə edilə bilər.

Xüsusi dizayn sayəsində PUA-nın radarlar üçün görmə qabiliyyəti azalır. Eyni zamanda, "ANKA III" avtopilot sistemi ilə təchiz edilib.

TUSAŞ şirkətinin nümayəndələri bildiriblər ki, "ANKA III"ün xüsusiyyətlərindən biri də pilotsuz təyyarəni tanker təyyarəsinin analoqu kimi istifadə etmək imkanıdır.

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə Silahlı Qüvvələri İraq və Suriyanın şimalında 13 terrorçunu zərərsizləşdirib



Türkiyə Silahlı Qüvvələri İraq və Suriyanın şimalında fəaliyyət göstərən terrorçulara qarşı növbəti zərbələr endirib. İraqın şimalında keçirilən "Pençe-Kilit" əməliyyatı bölgəsində qadağan olunmuş PKK terror təşkilatının 11 silahlısı, "Barış pınarı" əməliyyatı zonasında isə 2 terrorçu məhv edilib.

Müdafiə Nazirliyi bölgədə terror təhlükəsini tamamilə aradan qaldırmaq və son yaraqlı zərərsizləşdirilənə qədər əməliyyatları davam etdirmək əzmini vurğulayıb.

## Yunanıstanda NATO-nun aviasiya təlimləri keçirilir



Yunanıstanın Andravida hava bazasında NATO Hava Qüvvələrinin ən iri təlimləri olan "RAMSTEIN FLAG 24" başlayıb.

Oktyabrın 11-dək davam edəcək təlimlərə 140-dan çox təyyarə, o cümlədən ABŞ və İtaliyadan "F-35", Fransadan "Rafale" və "Mirage 2000", İsveç və Macarıstandan "Gripen", İspaniya və İtaliyadan "Eurofighter Typhoon" qırıcıları cəlb olunacaq.

"RAMSTEIN FLAG 24"ün məqsədi NATO-nun hərbi imkanlarını, o cümlədən hava hücumundan müdafiəsini, eləcə də elektron müdaxilələrlə mübarizəni optimallaşdırmaqdır. Yunanıstan Hava Qüvvələri NATO-ya bu təlimlərin ölkənin hava məkanında keçirilməsini təklif edib. Çünki onun coğrafi mövqeyi NATO-nun strateji maraqlarına uyğundur, eyni zamanda, Yaxın Şərq və Qara dəniz bölgələrinə yaxındır.

Təlimlər çərçivəsində Yunanıstan Dəniz Qüvvələri və xüsusi əməliyyat qüvvələri kəşfiyyat, hədəf təyini ilə məşğul olacaq. Təlimlərdə hücum və müdafiə əməliyyatları simulyasiya ediləcək, real döyüş şəraiti yaradılacaq.

## ABŞ və Böyük Britaniya qüvvələri Yəməndə husilərin 10-dan çox hədəfini vurub



ABŞ və Böyük Britaniya qüvvələri Yəməndə husilərin 10-dan çox hədəfini vurub.

Bu barədə "Associated Press" ABŞ rəsmisinə istinadla məlumat yayıb.

Zərbələr zamanı əsasən qruplaşmaya məxsus silah sistemləri, bazalar və digər avadanlıqların hədəfə alındığı bildirilir. Məlumata əsasən, zərbələr hərbi təyyarələr və döyüş gəmilərindən atılıb.

Xəsarətlərlə bağlı hələlik məlumat yoxdur.

## ABŞ Yaxın Şərqdəki ordusunun sayını artırıb



ABŞ ehtiyac olduğu halda İsrailin təhlükəsizliyi və müdafiəsini gücləndirmək məqsədilə Yaxın Şərqə daha bir neçə min ordu göndərdiyini açıqlayıb.

Bu barədə Müdafiə Departamentindən bildirilib. Əlavə qüvvələrlə birlikdə ABŞ-ın bölgədə şəxsi heyətinin sayı 34 minə çatacaq.

Buna F-15E, F-16 və F-22 döyüş təyyarələri və A-10 hücum təyyarələrinin eskadronları və onlara dəstək olmaq üçün lazım olan şəxsi heyət daxildir.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

## Azərbaycan taekvondoçusu beynəlxalq turnirdə bürünc medal qazanıb



Azərbaycan taekvondoçusu Vasif Səlimov Cənubi Koreyanın Çunçeon şəhərində keçirilən gənclərin dünya birinciliyində uğurla çıxış edib.

63 kiloqram çəkidə mübarizə aparan təmsilçimiz yarışda bürünc medal qazanıb.

V.Səlimov Qırğızıstan, Vyetnam, Tayvan və Tailanddan olan rəqiblərinə qalib gəlsə də, bolqarıstanlı idmançıya məğlub olaraq 3-cü yeri tutub.

## Azərbaycan gimnastları Rusiyada 4 medal qazanıblar



Azərbaycan gimnastları Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən "Dobrovolski" kubokunda 4 medal qazanıblar.

Tamblinq proqramında Mixail Malkin fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Adil Hacızadə və Aleksey Karataşov isə gümüş mükafata sahib çıxıblar.

Batut gimnastikasının sinxron proqramında çıxış edən Ammar Baxşalıyevlə Əli Niftəliyev üçüncü yeri tutublar.

## Azərbaycanın MMA döyüşçüsü beynəlxalq turnirdə qələbə qazanıb



Azərbaycanın MMA döyüşçüsü Məhəmmədəli Osmanlı Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində keçirilən "UAE warriors 54" peşəkar turnirində rinqə çıxıb.

20 yaşlı idmançı çeçenistanlı Şamil Borayevlə qarşılaşıb.

Döyüş Azərbaycan təmsilçisinin qələbəsi ilə başa çatıb.

**AZƏRTAC-ın materialları əsasında**

Baş leytenant Sadıqzadə Savalan Namət oğluna verilmiş MN № 0058631 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Cəfərov Azad Arif oğluna verilmiş MV № 127013 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


**Məsul katib**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
kapitan
Mahmud MÖHBALIYEV

Lisenziya № 361
Sifariş № 596
Nüsxə 4650